## TEXNİKİ BAXIŞIN NƏTİCƏLƏRİ MƏLUM OLUB

***99713 saylı hərbi hissə birinci yerə layiq görülüb***

Daxili İşlər Nazirinin müavini – Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə mühəndis silahlanma vasitələrinə illik texniki baxış keçirilib.

Texniki baxışın keçirilməsi zamanı mühəndis silahlanma vasitələrinin texniki vəziyyəti, istismar qaydaları, qorunub saxlanılması, xidmətin fəaliyyəti, həmçinin xidmət üzrə vəzifəli şəxslər tərəfindən vəzifə borclarının, yoxlama-nəzarət normalarının yerinə yetirilməsi yoxlanılıb. Baxış zamanı 99713, 67987, 17072 və 16077 saylı hərbi hissələr müsbət nəticələr əldə ediblər.

Texniki baxışın nəticələrinə əsasən, 99713, 67987 və 17072 saylı hərbi hissələr ardıcıl olaraq ilk üçlükdə qərarlaşıblar.

## YIĞMA KOMANDAMIZ KÜRSÜNÜN ZİRVƏSİNDƏ...



***Daxili İşlər Nazirinin əmrinə əsasən, aprelin 17-dən 19-dək daxili işlər orqan və hissələri arasında sərbəst güləş üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib.***

Daxili Qoşunların yığma komandası yarışda 9 idmançı və 1 nümayəndə ilə təmsil olunub. Şəxsi birincilikdə qoşunların 16075 saylı hərbi hissəsinin hərbi qulluqçusu leytenant Nadir Şərifov 66 kq, 99713 saylı hərbi hissənin hərbi qulluqçuları-baş çavuş Eldar Məmmədov 70 kq, əsgər Mirəli Hüseynov isə 84 kq çəki dərəcələrində 1-ci yeri tutublar.

99713 saylı hərbi hissənin hərbi qulluqçuları çavuş Elvin Dövlətov 70 kq və əsgər Əli Bayramov 84 kq çəki dərəcəsində 2-ci yerə layiq görülüblər.

16075 saylı hərbi hissənin hərbi qulluqçusu çavuş Kamal Məmmədli 61 kq, 67987 saylı hərbi hissənin hərbi qulluqçusu baş əsgər Ruslan Kübərov 3-cü yerdə qərarlaşıblar.

Daxili Qoşunların yığma komandası komanda birinciliyində kürsünün zirvəsinə yüksəliblər.

Yarışda yüksək nəticələr göstərən hərbi qulluqçularımız hərbi hissə komandirləri tərəfindən mükafatlandırılıblar.

**Mətbuat xidməti**

## ŞƏXSİ HEYƏTİN İDARƏ EDİLMƏSİNDƏ BƏDƏN DİLİNİN ROLU

*(əvvəli ötən sayımızda)*

**4. İdeosentirik (şəxsi vəziyyətlə bağlı) davranışların aydınlaşdırılıb izah olunması.**

Bu davranış qrupu fərdlərə məxsus hərəkətləri ifadə edən ideosentirik davranışlardır. Şəxsi vəziyyətlə bağlı işarələri ayırd etmək üçün daim tabeliyinizdə və ətrafınızda olan insanların davranış qəliblərini araşdırmaq lazımdır. Bir insanı nə qədər çox tanısanız, nə qədər çox münasibətdə olsanız, əldə edəcəyiniz məlumat bazası da düz mütənasib olaraq artacaqdır.

***Misal üçün:*** inspeksiya yoxlaması zamanı əsgər atəş açmazdan öncə başını qaşıyır və dodaqlarını gəmirir. Situasiyadan aydın olur ki, əsgərin stressli vəziyyətdə verdiyi reaksiya budur. Şübhəsiz ki, bu davranış stressin öhdəsindən gəlmək üsuluna çevrilib. Artıq növbəti dəfə bu reaksiyanı müşahidə edən komandir hərbi qulluqçunun stress keçirdiyini anlayaraq müdaxilə etməlidir. Çünki gələcəkdəki davranışlarımızın ən bariz nümunəsi keçmişdəki davranışlarımızdır.

**5. Ünsiyyət zamanı insanların əsas davranışlarını müəyyən edin.**

Ümumi olaraq bildirilir ki, daimi münasibətdə olduğunuz insanların əsas davranışlarını anlamaq üçün onların normal vəziyyətdə necə göründüklərini, necə oturduqlarını, əllərini haraya qoyduqlarını, normal duruşunu, ümumi üz ifadələrini, başlarının əyilib-əyilməməsini, əşyaları hara qoyduqlarını yaxud harda saxladıqlarını müşahidə etməyiniz lazımdır. Tanımadığınız insanın davranışına diqqətsiz olmaq, xüsusən də silahla xidmətə cəlb olunan əsgərlərdə pis nəticə göstərər. Əsgərin görünüşündə, mimikasında, səs tonunda, hətta səssizliyində belə ötürülən vacib informasiya ola bilər.

**6. İnsanları toplu və ya sıraya düzülmüş vəziyyətdə birdən çox ifadə və davranışını tutmağa çalışın.**

İnsanlar fərdi və qrup halında fərqli davranışlar nümayiş etdirirlər. Tabeliyində olan hərbi qulluqçuları müşahidə edərkən bunları öyrənmək və nəzərə almaq vacibdir. Misal üçün: hər hansı bir hərbi qulluqçunun fərdi qaydada edilən tənbehə reaksiyası tam sakit olmasına baxmayaraq, qrup halında aqressiv və kobud bədən dili elementləri ilə müşayiət oluna bilər. Yuxarıdakı təlimatı həyata keçirməyə başladığınız andan etibarən onları doğru oxumaq istiqamətində bacarığınız inkişaf etməyə başlayacaqdır. Bu işarələr bir qurmaçanın parçaları kimidir, nə qədər çox parçaya sahib olsanız, onları bir araya gətirərək yaratdığı rəsmi görmək şansınız artacaq.

**7. Şəxsin düşüncə, duyğu, maraq, diqqət və yaxud niyyətlərindəki dəyişiklikləri göstərə biləcək davranış fərqliyini müəyyən etmək.**

Davranış dəyişiklikləri bəzi hallarda insanın maraq və niyyətini açıqlaya bilər. Bu növ dəyişiklikləri diqqətli şəkildə təqib edə bilməyiniz hadisələri meydana gəlməzdən öncə təxmin etməyinizə fürsət verəcək, bununla da sizə ciddi üstünlük qazandıracaq, xüsusilə yaxınlaşmaqda olan hadisə, özü ilə sizə və ətrafınızdakılara zərər verəcək potensial təhlükə daşıyırsa.

***Misal üçün:*** hərbi qulluqçu ilk öncə digər hərbi qulluqçuların göstərdiyi fəaliyyətlərdən yayınmağa başlayır. Bu kobud intizam pozuntusunun gələcəyi haqqında ilk siqnaldır. Daha sonra istirahət zamanı siqaret çəkmədiyi halda yaxınlaşır və icazə istəyir. Bu onun hər hansı neqativ planının olduğunu göstərir. Vaxtında həmin hərbi qulluqçunun xidmətdən yayınmaqla bağlı davranış əlamətləri göstərdiyini və siqaret çəkmədiyini bilən komandir artıq anlayır ki, bu proses nəzarətə alınıb araşdırılmalıdır.

**8. Yanlış və yaxud aldadıcı davranışları müəyyən edə bilmək böyük əhəmiyyət kəsb edir.**

Doğru və aldadıcı davranış əlamətlərini bir-birindən fərqləndirə bilmə bacarığı xüsusilə çalışqanlıq və təcrübə tələb edir. Effektli və diqqətli müşahidə bacarığı da bu məsələdə ciddi əhəmiyyətə malikdir.

**9. Rahatlıq və narahatlıq.**

Hərəkət rabitəsi mövzusunda maariflənmənin təməli məhz şəxsin rahat və ya narahat olmasının düzgün şəkildə oxunmasıdır.Əgər qarşınızdakı şəxsin davranışlarının nə mənaya gəldiyi məsələsində şübhəyə düşsəniz, bu işarələrin rahatlıq (xoşbəxtlik, süstləşmə) ya da narahatlıq (məmnuniyyətsizlik, bədbəxtlik, stress, təlaş, əsəbilik) işarəsi olduğunu anlamağa çalışın. Misal üçün, əgər söhbət zamanı hərbi qulluqçu ayağını müntəzəm tərpədir, baxışlarını tez-tez sağa-sola yönəldir, emosional danışır və ya danışmaq istəmirsə, bu artıq onun narahat olduğuna işarədir. Araşdırılmalıdır.

**10. ƏSAS: İnsanları müşahidə edərkən bunu bəlli etməyin.**

Bədən dili ilə münasibətdən istifadə etmək insanları diqqətlə müşahidə etməyinizi və onların davranışlarını düzgün şəkildə anlamağınızı tələb edir. İnsanları müşahidə edərkən buraxa biləcəyimiz ən böyük səhv həmin insanın nə etdiyinizi anlamasıdır. Bir çox insanlar bədən dili ilə maraqlanan ilk zaman gözlərini çəkmədən şəxsə baxmaq kimi bir xətaya yol verirlər. Məcburi baş tutan bir müşahidə tövsiyə olunmur. Ümumiyyətlə, müşahidə zamanı özünüzün davranışlarınız təbii olmalıdır.

Müşahidə bacarığınızı qüsursuzlaşdırmaq üçün çalışsanız, cəhdlərinizi istədiyiniz səviyyəyə mütləq çatdıracaqsınız. Bu yalnız çalışqanlıq və qərarlılıqla bağlı məsələdir.

*Bədən dilini öyrənməyiniz üçün lazım gələn on təlimatı bildikdən sonra artıq insanların davranışlarını düzgün şəkildə anlaya bilərsiniz. Bədən dilini öyrənməyin son həddi yoxdur.*

**leytenant A.Dadaşova,**
**12318 saylı hərbi hissədə təlimatçı-psixoloq**

## NÜMUNƏVİLİYİ İLƏ FƏRQLƏNƏN İŞÇİLƏRİMİZ

***Bu gün Daxili Qoşunların hərbi hissələrində müasir standartlara tam cavab verən, hərtərəfli şəraitə malik hərbi şəhərciklərdə aparılan abadlıq işləri, yaradılmış səliqə-sahmanın qorunub saxlanılması əsas tələblərdən biridir.***

Bu tələblərin yerinə yetirilməsində hərbi qulluqçularla yanaşı, mülki işçilərin əməyindən də geniş istifadə olunur. Əsgər yeməkxanasında xörəklərin hazırlanması, camaşırxanada əmlakların yuyulması, geyim formalarının hərbi qulluqçuların bədən ölçülərinə uyğunlaşdırılması və s. işlər onlar tərəfindən həyata keçirilir. Sadaladığımız bu işlərin hərbi qulluqçular tərəfindən deyil, mülki işçilər tərəfindən görülməsi həm də hərbi hissələrdə yüksək döyüş hazırlığının qorunub saxlanılmasına xidmət edir. Belə ki, əvvəllər bu işlərə müddətli hərbi qulluqçular cəlb edilirdisə, artıq əsgərlərimiz bütün gücünü döyüş hazırlığının yüksəldilməsi məqsədilə təlim və məşğələlərdə peşə vərdişlərinin artırılmasına sərf edir.

Qurğuların, avadanlıqların düzgün texniki istismarına, yanacaq materiallarının uçotunun aparılmasına, həmçinin qazanxanada yanğından mühafizə tədbirlərinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyan 67987 saylı hərbi hissənin maddi-texniki təminat xidmətində qazanxana rəisi gizir Orxan Mustafayev üzərlərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşdıqlarını bildirdi. Gün ərzində qazanxana operatoru Tofiq Həsənovun xidmətinə nəzarət edən gizir O.Mustafayev mülki işçi kimi onun vəzifələrinin icrasına ciddi yanaşdığını, qoyulan tapşırıqları vaxtında yerinə yetirdiyini söylədi. İstilik qazanlarının təzyiqinə, suyun temperaturuna daim nəzarət edən T.Həsənov hissənin ərazisində yerləşən modul tipli yataqxananın, hamam və camaşırxananın isti su ilə təminatına cavabdehlik daşıyır.

Eyni zamanda, hissədə artıq 15 ildir çalışan Saleh Kərimov və Hidayət Qəhrəmanov kimi peşəkarlığı ilə fərqlənən mülki işçilərin də adlarını çəkmək yerinə düşər.

67987 saylı hərbi hissənin camaşırxanası da peşəkar işçi heyəti ilə fərqlənir. Camaşırxana bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Aynur Nəbiyeva, Gülbahar İsayeva, Səyyad Mustafayeva və Zərxanım Tağıyeva artıq neçə ildir ki, bu hərbi hissədə əsgərlərin qayğısına qalırlar. Bu işi böyük zövqlə, sevə-sevə gördüklərini deyən xanımlar hər bir əsgərin simasında öz övladını gördüklərini, sanki öz doğmalarına qulluq etdiklərini bildirdilər. Qeyd etdilər ki, həftədə 1 dəfə hamam tədbirlərindən sonra çirkli əmlaklar yuyulur, ütülənib qurudulduqdan sonra çeşidlənərək hər bir əmlak aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan maşınlarda yuyulur ki, bu da yuyulma texnologiyasına uyğundur. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və mülki işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

Mülki işçi olmalarına baxmayaraq, özlərini hərbi hissənin hərbi qulluqçusu kimi hiss etdiklərini deyən xanımlar bundan sonra da üzərlərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirmək üçün səylə çalışacaqlarını bildirdilər.

**leytenant N.Ağayeva**











## HƏRBİ XƏBƏRLƏR

### Yeni zenit-raket kompleksi silahlanmaya qəbul edilib

Rusiya müdafiə sənayesi kompleksinin yeni məhsulu olan **“Tor-M2U” zenit-raket kompleksi** ordunun silahlanmasına qəbul olunub.



Rusiya Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən yayılan məlumatına görə, kompleks silahlı qüvvələrin Qərb hərbi dairəsinin istismarına verilib.

Həştərxan vilayəti ərazisində həyata keçirilən təlimdən sonra “Tor-M2U” Moskvaətrafı ərazidə döyüş növbəsinə qəbul olunacaq.

Xatırladaq ki, “Tor-M2U” yaxın məsafədə döyüş aparılması üçün çoxməqsədli mobil zenit-raket kompleksidir.

### Müasir zirehli ambulans maşını yaradılıb

Türkiyənin “Katmerciler” şirkətinin istehsalı olan zirehli ambulans maşınının təqdimatı keçirilib.

Şirkətin mətbuat xidmətinin verdiyi məlumatda qeyd edilib ki, Türkiyə Silahlı Qüvvələri və hüquq-mühafizə orqanlarının tələbatını ödəmək məqsədi ilə istehsal edilən zirehli ambulans 4×4 təkər formuluna malikdir.

Ford F550 şassisi üzərində yaradılan zirehli ambulans təhlükəli ərazilərdə ilkin tibbi yardım və təxliyə məqsədi ilə yaradılıb.

Ambulansın daxilinin genişliyi xəstələr üzərində ayaq üstə əməliyyat aparmaq imkanı verir.

Zirehli ambulans maşın sürücü, 2 tibb heyəti və 5 xəstə daxil olmaqla, 8 nəfəri daşımaq qabiliyyətinə sahibdir.




Məlumatda o da qeyd olunub ki, 300 HP gücünə və 4×4 sürmə imkanına malik ambulans maşın hər cür yol və hava şəraitinə uyğun hazırlanıb.

Sürücü, tibb heyəti və xəstələrin təhlükəsizliyini tam təmin edən zirehli ambulansın istənilən konfiqurasiya və fərqli ballistik qoruma səvyyələrinə uyğun dizayn edilməsi mümkündür.

### Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti gizir Fərid Hacızadəyə **atasının** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.


*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000


*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


ƏSGƏR

№ 08 (499)
29 aprel 2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# PREZİDENT İLHAM ƏLİYEV BİBİHEYBƏT MƏDƏNİNİN ƏRAZİSİNDƏ DÜNYADA SƏNAYE ÜSULU İLƏ QAZILMIŞ İLK QUYUNUN BƏRPADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞ OLUB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da SOCAR-ın Bibiheybət mədəninin ərazisində dünyada sənaye üsulu ilə qazılmış ilk quyunun bərpadan sonrakı vəziyyəti ilə tanış olub.***



**AZƏRTAC** xəbər verir ki, SOCAR-ın prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, XIX əsrdə burada “Nobel qardaşları neft hasilatı şirkəti”nə məxsus neft və neft məhsullarının daşınması üçün ağcaqayın ağacından hazırlanmış faner borunun bir hissəsi, həmçinin həmin şirkətin sifarişinə əsasən Bakıya gətirilmiş quyuüstü avadanlıqlar da nümayiş olunur. Hələ qədim dövrlərdən Azərbaycan dünyada neftin vətəni sayılırdı. Bakının neft mədənlərində quyular bir qayda olaraq əl ilə qazılırdı. XIX əsrin əvvəllərindən etibarən neft quyularının daha mütərəqqi üsullarla qazılması istiqamətində araşdırmalara başlanıldı. 1840-cı illərdə daha mütərəqqi üsullarla quyular qazmaq və neft hasilatını artırmaq üçün yollar axtarılırdı. Tarixi mənbələr və son illərdə Rusiyanın Mərkəzi Dövlət Tarix Arxivindən tapılmış sənədlər dünyada sənaye üsulu ilə neft quyusunun qazılmasına Bibiheybətdə başlanıldığını bir daha sübut edir. Belə sənədlərdən biri Zaqafqaziya Vilayəti Baş İdarəsinin Şura üzvü, dövlət müşaviri Vasili Semyonovun bu vilayətin baş komandanı general Aleksandr Neydqarta yazdığı 1844-cü il 22 dekabr tarixli məktubdur. Məktubda Semyonov Abşeron yarımadasındakı neft mədənlərini ətraflı təsvir edir, hasilatın artırılması üçün konkret texniki və təşkilati təkliflər verir. Semyonovun məktubuna müsbət rəy verildikdən sonra 1845-ci ilin aprelində maliyyə naziri Fyodor Vronçenkonun göstərişi ilə Kaspi Xəzinə Palatası tərəfindən qazma işlərinə min gümüş sikkə ayrılır və Bibiheybət rayonunda kəşfiyyat quyusunun qazılması haqqında tapşırıq verilir. 1846-cı ilin yanvarında Bakı neft və duz mədənlərinin direktoru, dağ mühəndisləri korpusunun podpolkovniki Nikolay Voskoboynikovun rəhbərliyi ilə Bibiheybət yatağında iki quyunun qazılmasına başlanılır. Quyulardan biri 21 metr dərinlikdən neft verir və bununla da dünyada sənaye üsulu ilə neft hasilatının əsası qoyulur. 1847-ci il 8-14 iyul tarixlərində Qafqaz canişini knyaz Mixail Vorontsovun imzaladığı hesabatlarda da dünyada ilk neft quyusunun Xəzər dənizinin sahilində qazılması faktı təsdiq olunur. Neftçıxarma işində əldə olunmuş inqilabi yeniliklər XIX əsrin 50-ci illərində Abşeronda hasilatın yüksəlməsinə, emal sənayesinin yaranmasına böyük təkan verib.

Mexaniki üsulla quyu qazılması texnikasının və texnologiyasının inkişafı sayəsində Bakıda bir sıra yeni neft yataqları istismara verilib, quyular qazılıb, hasilat artırılıb, neft sənayesi infrastrukturu inkişaf etdirilib. 1899-1901-ci illərdə 11,5 milyon ton neft hasil edən Bakı neft sənayesi dünyada birinci yeri tuturdu. Müqayisə üçün deyək ki, 1859-cu ildə sənaye üsulu ilə neft quyularının qazılmasına başlanılmış Amerika Birləşmiş Ştatlarında isə bu göstərici o zaman 9,1 milyon ton təşkil edirdi.

Dövlətimizin başçısı burada quraşdırılan xüsusi interaktiv köşkə baxdı.

Bildirildi ki, bu köşk vasitəsilə Azərbaycanın neft tarixi, o cümlədən sənaye üsulu ilə qazılmış ilk quyu barədə ətraflı məlumat almaq mümkündür. İnteraktiv köşkə, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdikləri neft strategiyası haqqında məlumat, Azərbaycanın neft sənayesi ilə bağlı tarixi foto və videolar da yerləşdirilib.

Neftçilərlə söhbət edən dövlətimizin başçısı qeyd etdi ki, bu gün isə bizim neftimiz xalqımıza xidmət edir, dövlətimizi gücləndirir: “Bax, bütün bu ərazi hələ də neft buruqları ilə doludur və birinci quyu da burada qazılmışdır. Bu ərazinin fotoşəkilləri, videogörüntüləri var. Onlar yaxın tarixin görüntüləridir. Bura ekoloji fəlakət zonası idi. Hər tərəfdə neft gölməçələri, köhnə buruqlar var idi, ərazi neftlə çirklənmişdi. İndi bu ərazi şəhərimizin ən abad yerlərindən birinə çevrilibdir. Yəni, biz neftdən gələn gəliri ölkəmizin inkişafına yönəltdik, insan kapitalına, infrastruktur layihələrinə qoyduq və bu gün neft Azərbaycan xalqının inkişafını təmin edir. Bax, müstəqillik budur və 25 il müstəqil dövlət kimi yaşayan Azərbaycan bu gün ayaqda möhkəm dayanır. Neft bizim təbii sərvətimizdir, xalqımızın böyük sərvətidir, biz də ondan istifadə edib ölkəmizi inkişaf etdiririk. Əlbəttə, neftçilərin də burada əməyi xüsusi qiymətə layiqdir. Mən həmişə neftçilərin əməyini, onların cəsarətini qiymətləndirirəm. Onlar ağır şəraitdə çalışırlar, ölkəmizin inkişafı üçün işləyirlər. Çalışırlar ki, öz əməyi ilə ölkəmizi gücləndirsinlər.

Bugünkü hadisə də tarixi hadisədir. Biz artıq o tarixi həqiqəti, bax, burada əyani şəkildə bütün dünyaya nümayiş etdiririk. Əminəm ki, şəhərimizə gələn bütün qonaqlar çox böyük maraqla buraya gəlib, bax, bu buruğun önündə şəkil çəkdirəcəklər. Sizi təbrik edirəm”.

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş Komandanı ordu generalı Yaşar Gülerin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə rəsmi səfərə gəlib.***



Aprelin 26-da səhər cənab Yaşar Güler və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər çiçəklər düzülüb.

Daha sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər Xiyabanındakı "Əbədi məşəl" kompleksini, Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının Qardaşlıq məzarını və Türk Şəhidliyini ziyarət ediblər.

Həmin gün Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın Türkiyə ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, Ulu Öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun «Bir millət, iki dövlət» siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

Cənab Ramil Usubov 1997-ci il oktyabrın 31-də hökumətlərarası «Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid Protokol»un imzalandığını, bununla da Daxili Qoşunlarla Jandarm Qüvvələri arasında hərbi əməkdaşlıq münasibətlərinin hüquqi əsasının qoyulduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, dost və qardaş dövlətin müvafiq qurumları ilə əlaqələr ilk növbədə qarşılıqlı hüquqi yardım göstərilməsi haqqında, təcrübə mübadiləsi, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə dövlətlərarası müqavilələr əsasında qurulub.

Nazir rəhbərlik etdiyi qurumun Türkiyənin Daxili İşlər Nazirliyi, o cümlədən Jandarm Komandanlığı ilə münasibətlərin daha da inkişaf etdirilməsinə böyük önəm verdiyini, ordu quruculuğunda, o cümlədən Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Silahlı Qüvvələrinin, həmçinin Jandarm Komandanlığının böyük zəhməti olduğunu xüsusi vurğulayaraq buna görə təşəkkürünü bildirib.

Daha sonra qonağa müstəqilliyin ilk illərində qarşılaşdığımız problemlər, torpaqlarımızın işğalı, 1 milyondan artıq soydaşımızın doğma yurdlarından qaçqın düşməsi, ölkəmizdə cərəyan edən gərgin ictimai-siyasi proseslər barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ali hakimiyyətə tarixi qayıdışından sonra onun rəhbərliyi altında cəmiyyət həyatının bütün sahələrində, o cümlədən cinayətkarlıqla mübarizə, ictimai qayda və ictimai təhlükəsizliyin təmini sahəsində həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində Azərbaycanda sabitlik, əmin-amanlıq bərpa edilib, kriminogen durum nəzarətə götürülüb. Bildirilib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan dönməz sabitlik yaradılıb.

Nazir Türkiyə Jandarm Qüvvələri Baş Komandanının ölkəmizə səfərinin əlaqələrimizin inkişafına və daha da dərinləşməsinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən ordu generalı Yaşar Güler Azərbaycana səfərindən, Bakının ən gözəl paytaxt şəhərlərindən biri olmasından, ölkəmizin dinamik inkişafından, eyni zamanda, Daxili Qoşunların yüksək peşəkarlığa və döyüş qabiliyyətinə malik mobil bir quruma çevrilməsindən məmnun olduğunu vurğulayıb.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, «bir millət, iki dövlət» olaraq Türkiyənin hər zaman Azərbaycanın yanında yer aldığını, ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini bildirib.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

Qəbulda Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral iştirak edib.

## TÜRKİYƏ JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI ORDU GENERALI YAŞAR GÜLER DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ - DAXİLİ QOŞUNLARIN KOMANDANI GENERAL-LEYTENANT ŞAHİN MƏMMƏDOVLA GÖRÜŞÜB

***Aprelin 26-da Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Türkiyə Respublikasının Jandarm Baş Komandanı ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Qonaqları səmimiyyətlə salamlayan general-leytenant Ş.Məmmədov Türkiyə Respublikası Jandarm Baş Komandanlığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında dostluq və hərbi əməkdaşlıq münasibətlərinin günü-gündən genişləndiyini qeyd edib.

Səmimi və qonaqpərvər qəbul üçün təşəkkürünü bildirən Jandarm Qüvvələrinin Baş Komandanı ordu generalı Y.Güler respublikamıza səfər etməsindən məmnunluğunu ifadə edərək, iki ölkənin müvafiq qurumları arasındakı əlaqələri yüksək qiymətləndirib, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, təcrübə mübadiləsinin davam etdiriləcəyini vurğulayıb.



Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə hərbi tərəfdaşlıq məsələləri müzakirə edilib.

Sonra qonaqlara Daxili Qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, döyüş yolu və bugünkü inkişafı barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, aprelin 28-dək davam edən səfər çərçivəsində Türkiyə Jandarm Qüvvələrinin Baş Komandanı və nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış hərtərəfli şəraitlə və o cümlədən Bakı şəhərində yerləşən "N" saylı hərbi hissə ilə tanış olaraq taktiki təlimi izləyiblər.

Qonaqlar həmçinin Heydər Əliyev Mərkəzini və paytaxtımızdakı tarixi mədəniyyət abidələrini ziyarət ediblər.



**Mətbuat xidməti**

# KOMANDA-QƏRARGAH TƏLİMİ KEÇİRİLİB

***Aprelin 18-də Daxili Qoşunların Baş İdarəsinin idarə, şöbə, xidmət rəislərinin, Ali Hərbi Məktəbin müəllimlərinin, qoşunların Bakı qarnizonunda yerləşən bir neçə hərbi hissəsinin komandanlıqlarının və bölmə komandirlərinin iştirakı ilə "İctimai qaydanın qrup halında pozulmasının qarşısının alınması və ictimai təhlükəsizliyin təmin olunması üzrə xüsusi əməliyyatla taborun (dəstənin), alahiddə bölüyün fəaliyyəti" mövzusunda komanda-qərargah təlimi keçirilib.***





Təlimin bir hissəsi hərbi hissələrdə, digər hissəsi isə 25031 saylı hərbi hissədə təşkil olunub.

Aprelin 17-də təlim keçirilən yerin hazırlığı yoxlanılıb. Dörd mərhələdən ibarət komanda-qərargah təlimi zamanı bir sıra tapşırıqların yerinə yetirilməsi təmin olunub. Belə ki, hərbi hissələrin idarəetmə orqanları tərəfindən şərti əməliyyat şəraitinə uyğun vəzifələr dəqiqləşdirilib, şərti əməliyyatın hərtərəfli təminatının, idarəetmənin və qarşılıqlı fəaliyyətin təşkili üzrə tədbirlər həyata keçirilib.

Bununla yanaşı, şərti əməliyyat şəraitinə uyğun olaraq hərbi hissələrin komandirləri tərəfindən bölmələr döyüş hazırlığına gətirilib. Şəxsi heyətin və texnikanın hazırlıqları yoxlanılıb, əməliyyat şəraiti və tapşırıqlar şəxsi heyətə çatdırılıb.

Növbəti mərhələdə hərbi hissələr tərəfindən şərti xüsusi əməliyyat başlanıb, yuxarı komandir heyəti bölmələrin komandirlərinə müvafiq tapşırıqlar verib.

Sonuncu mərhələdə hissə komandirləri tərəfindən şəxsi heyətin, silah-sursatın, xüsusi vasitələrin, texnikanın, rabitə və digər maddi vasitələrin yoxlanması, bölmələrin ərazilərdən çıxması, daimi yerləşmə yerinə qayıtması təşkil edilib.

Təlimin bütün mərhələlərində komandir heyəti tərəfindən qəbul edilmiş qərarlar müzakirə edilərək, ortaya çıxan suallar aidiyyəti vəzifəli şəxslər tərəfindən cavablandırılıb.

Sonda Daxili Qoşunların Qərargah rəisinin 1-ci müavini polkovnik Tofiq Hüseynov komanda-qərargah təliminə yekun vuraraq, komandanlıqların, qərargahların və idarəetmə orqanlarının gələcəkdə peşə hazırlığının daha da yüksəldilməsi üçün müvafiq tapşırıq və tövsiyələrini verib.

**baş leytenant X.Hacızadə**

# ALİ HƏRBİ MƏKTƏBİN YARADILMASININ 11-ci İLDÖNÜMÜ QEYD OLUNUB

***Ali Hərbi Məktəbdə kursantların seçdikləri peşəyə dərindən yiyələnmələri üçün bütün lazımi imkanlar mövcuddur***



Aprelin 17-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin yaradılmasının 11-ci ildönümü münasibətilə təntənəli mərasim keçirilib.

Tədbir Milli Lider Heydər Əliyevin və respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb, Dövlət Himni ifa olunub.

Sonra təbrik üçün Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədova söz verilib.

Şəxsi heyəti növbəti ildönümü münasibətilə təbrik edən general-mayor İ.Məmmədov ölkəmizin müharibə şəraitində yaşadığı bir zamanda savadlı, peşəkar zabitlərin yetişdirilməsinə böyük ehtiyac duyulduğunu bildirib. Qeyd edib ki, 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2006-cı ildə yaradılan Orta İxtisas Hərbi Məktəbinin bazasında formalaşan Ali Hərbi Məktəbin də ən ümdə vəzifələrindən biri müasir tələblərə cavab verən, yüksək nəzəri və peşə hazırlıqlı gənc kadrların hazırlanmasıdır. Bu məqsədlə hər bir kursant Vətənə, xalqa məhəbbət, dövlətə və hərbi anda sədaqət ruhunda tərbiyə olunur, torpaqlarımızın işğal altında olduğunu və qisas gününü unutmur. Çünki bu günün kursantı gələcəkdə Vətənin, dövlətin müdafiəçisidir.

Ali Hərbi Məktəbin rəisi son zamanlar Daxili Qoşunlarda olduğu kimi, Ali Hərbi Məktəbdə də şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün mütəmadi olaraq tədbirlərin həyata keçirildiyini vurğulayıb. Daxili Qoşunlar Komandanlığının şəxsi heyətə göstərdiyi bu xüsusi diqqət və qayğının kollektivin ümumi əməyinə verilən yüksək qiymət, gələcəkdə daha səmərəli fəaliyyət üçün stimul olduğunu söyləyib.

Çıxışının sonunda o, Daxili Qoşunlar Komandanını əmin edib ki, şəxsi heyət üzərlərinə düşən tapşırıqların icrasına bundan sonra da məsuliyyətlə yanaşaraq, öz sayıqlığını qoruyub saxlayacaq, hərbi xidmət borcunu vicdanla yerinə yetirəcək, Daxili Qoşunların şərəfini hər zaman uca tutacaq.

Daha sonra Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun şəxsi heyətə ünvanladığı təbrik məktubu çatdırılıb.

Təbrikdə bu gün güclü maddi-texniki bazaya malik olan Daxili Qoşunların kadr potensialının möhkəmləndirilməsinə xüsusi diqqət göstərildiyi, müasir dövrün tələblərinə cavab verən, yüksək ixtisaslı peşəkarların hazırlanmasını həyata keçirən Ali Hərbi Məktəbdə kursantların seçdikləri peşəyə dərindən yiyələnməsi üçün bütün lazımi imkanların mövcud olduğu qeyd edilib.

Həmçinin məktubda böyük iftixar hissi ilə dövlət və dövlətçiliyimizə sadiq olan kursantlarımızın üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə, Azərbaycana sədaqətlə xidmət edəcəklərinə, vətənpərvərlik, şəxsi cəsarət, dönməzlik və saf mənəviyyat nümayiş etdirəcəklərinə əminlik ifadə olunub.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**baş leytenant X.Hacızadə**

# OMBUDSMAN APARATININ ƏMƏKDAŞI DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏSİNƏ BAXIŞ KEÇİRİB

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Komandanlığı ilə razılaşdırılmış plan-cədvələ müvafiq olaraq, Ombudsman Aparatının əməkdaşlarının hərbi hissələrə baş çəkmələri müntəzəm qaydada davam etdirilir. Növbəti dəfə aprel ayında Ombudsman Aparatının əməkdaşı-Hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov Daxili Qoşunların 16076 saylı hərbi hissəsinə baxış keçirib. Baxışın məqsədi hərbi qulluqçuların məişət şəraiti ilə tanış olmaq, onlarla rəftar və hərbi hissədə insan hüquqlarının qorunması vəziyyətinin araşdırılması olub.

Aparatın əməkdaşı hərbi hissədə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının yataqxanalarında yaradılmış şəraitlə tanış olub, yeməkxanada yeməklərin müvafiq normalara uyğun verilməsi və keyfiyyəti ilə maraqlanıb, əsgərlərlə birgə nahar edib. Əşya, ərzaq anbarına, əsgər mağazasına, qazanxana, camaşırxana və tibb məntəqəsinə baş çəkib.

Bundan əlavə, hərbi qulluqçulara Ombudsman institutunun yaranması və səlahiyyətləri, insan hüquqları üzrə müvəkkilin çoxşaxəli fəaliyyəti, o cümlədən hərbi qulluqçuların qanuni mənafelərinin müdafiəsi istiqamətində gördüyü işlər barədə məlumat verilib, insan hüquqları mövzusunda söhbət aparılıb, suallar cavablandırılıb.

Hərbi hissədə aparılan hüquqi maarifləndirmə və təlim-tərbiyə işləri, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər də diqqət mərkəzində olub.

Ümumilikdə, hərbi qulluqçular üçün yaradılmış şərait, onlarla hərbi nizamnamələrə uyğun rəftar, bütün növ təminatlarının təşkili və sağlamlığının qorunması yönündə görülən işlər Ombudsman Aparatının əməkdaşı tərəfindən müsbət qiymətləndirilib.

**leytenant N.Ağayeva**

# HƏRBİ HİSSƏ QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARI UĞURLA İCRA EDİR

***Bu gün Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının qarşısında qoyulmuş bütün vəzifələr müvəffəqiyyətlə həyata keçirilir. İstər paytaxt Bakıda, istərsə də regionlarda yerləşən hərbi hissələr polis orqanları ilə yanaşı, ictimai qaydanın, eləcə də ictimai təhlükəsizliyin keşiyində mətin dayanır. Qarşıya qoyulmuş tapşırıqları uğurla icra edən hərbi hissələrdən biri də 16077 saylı hərbi hissədir.***











Digər hərbi hissələrdə olduğu kimi, hərbi hissənin mühafizə və müdafiəsi bu hərbi hissədə də önəmli məsələlərdəndir. Qarovul xidmətinə cəlb olunan hər bir hərbi qulluqçu sağlam səhhətə, güclü fiziki göstəricilərə, eyni zamanda sərrast atıcılıq qabiliyyətinə malik olmalıdır. Bu keyfiyyətlərlə yanaşı, xidmətə çıxacaq şəxsi heyətin mənəvi-psixoloji durumunun da qənaətbəxş olması mühüm əhəmiyyət kəsb edir.

Komendant bölüyünün komandiri baş leytenant Hakim Hüseynov sözügedən keyfiyyətlərin daha da yüksəldilməsi istiqamətində görülən işlərdən danışdı. Bildirdi ki, şəxsi heyət mütəmadi olaraq həm nəzəri, həm də praktiki məşğələlərə cəlb olunur. Nəzəri məşğələlər zamanı onlara postda olarkən ayıq-sayıq, çevik, cəsarətli olmaları, tapşırılmış obyekti "göz bəbəyi" kimi qorumalı olduqları izah edilir. Bundan başqa, posta çıxan növbə silahlanarkən, həmçinin silahı doldurub-boşaldarkən təhlükəsizlik qaydalarına ciddi riayət etmələri tələb olunur.

Bölük komandirinin sözlərinə görə, xidmətdə olan şəxsi heyətin istirahəti, o cümlədən asudə vaxtının səmərəli təşkili də diqqət mərkəzində saxlanılır. O, görülən işlərdə yaxından köməklik göstərən leytenant Rəyasət Əliyevin və baş çavuş Anar Səfxanovun əməyini vurğuladı.

Xidmətdə daha fəal olan hərbi qulluqçulardan qarovul rəisinin köməkçisi çavuş İmran Məmmədovun, baş əsgər Əkbər Rzayevin, qarovul nəfərləri əsgərlər Samir İsayevin, Əhməd Əhmədovun və Həmid Bağırlının adlarını çəkdi.

**Hərbi hissənin əhəmiyyətli bölmələrindən biri də xüsusi təyinatlı dəstədir.**

Dəstə komandiri kapitan Şixamir Qaflanov hərbi qulluqçuların bilik və bacarıqlarının, peşə vərdişlərinin artırılmasının diqqət mərkəzində saxlanıldığını söylədi. Bu məqsədlə, şəxsi heyət əsasən praktiki təlimlərə cəlb olunur. Məşğələ cədvəlinə uyğun olaraq müxtəlif mövzularda təlimlər keçirilir. Belə xüsusi-taktiki təlimlərdən biri də silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsidir. İlk olaraq qum sandığı üzərində dəstə komandiri tərəfindən əməliyyat şəraiti çatdırılır, hər bir hərbi qulluqçuya əməliyyat zamanı fəaliyyət izah edilir. Şəxsi heyət ayrılmış zirehli texnikalarda əməliyyat rayonuna gəlir. Snayper qrupu digər qrupların təhlükəsiz bir şəkildə əraziyə yerləşib mövqe tutmaları üçün şərait yaradır. Sonra hücum qrupu zirehli texnikalarla iki istiqamətdə hərəkət edərək, üzərində olan iriçaplı silahlarla atəş dəstəyini təmin edir. Hücum qrupu cinayətkarların gizləndiyi binaya daxil olur və silahlı cinayətkarlar zərərsizləşdirilir.

Kapitan Ş.Qaflanov bu kimi təlimlərin hərbi qulluqçularda döyüş əzminin, döyüş qabiliyyətinin yüksəldilməsində mühüm rol oynadığını nəzərə çatdırdı. O, dəstədə peşəkarlıqları ilə seçilən hərbi qulluqçulardan yarımqrup komandirlərindən gizir Dəyanət Allahyarovun, baş çavuş Rizvan Məhərovun, baş çavuş Hüseyn Həsənovun, atıcılar baş çavuş Dəyanət İsayevin və çavuş Anar Əliyevin adlarını qeyd etdi.

**Artilleriya divizionunun tank əleyhinə batareyası cari ilin I rübündə hərbi hissədə yüksək nailiyyət əldə edən bölmələrdəndir.**

Düşmənin zirehli texnikasının, sığınacaqlarının, asılı helikopterlərinin məhv edilərək piyada bölmələrin maneəsiz irəliləməsinə şərait yaratmaq tank əleyhinə batareyanın əsas vəzifələrindəndir. Piyadalara atəş dəstəyini təmin etmək, mühəndis qurğularını sıradan çıxartmaq da batareyanın üzərinə düşən tapşırıqlardandır. Tank əleyhinə batareya komandiri leytenant Seymur Mehralıyev hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, habelə peşə vərdişlərinin formalaşması istiqamətində görülən işlərdən bəhs etdi. O, bu baxımdan keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. Məşğələlərdə təlim qurğusu üzərində tank əleyhinə idarə olunan raket sistemlərinin təyinatı, taktiki-texniki xüsusiyyətləri, istifadə qaydaları öyrədilir. Kompyuter təlim-məşq aparatlarında isə gecə və gündüz atəşlərin aparılması, raketin lazer vasitəsilə idarə olunması və hədəfin məhv edilməsi praktiki olaraq məşq etdirilir. Leytenant S.Mehralıyevin sözlərinə görə, təlim-məşq aparatlarında sistemin məhv edə biləcəyi



bütün növ hədəflər mövcuddur və bu da tank əleyhinə idarə olunan raket sistemindən istifadə bacarığının artırılmasına təkan verir. O, məşğələlərdə fəal iştirak edən hərbi qulluqçulardan heyət rəisi kiçik gizir Xaliq Yusifzadənin, heyət nəfərləri əsgər Elcan Şahmalıyevin və əsgər Qasım Bayramovun adlarını çəkdi.

**baş leytenant T.Əlizadə**



*Şəhidlərimiz*

# SON DÖYÜŞÜ LƏLƏTƏPƏ ƏTRAFINDA OLDU...

***"Hər bir şəhid bizim üçün böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır".***

**Heydər Əliyev,**
**Azərbaycan xalqının Milli Lideri**



İBRAHİMOV SEYRAN İBRAHİM OĞLU

XX əsrin sonlarında vəhşi erməni cəlladlarının torpaqlarımıza yenidən hərbi təcavüzü baş qaldıranda, digər bölgələrimizdə olduğu kimi, Zərdabın cəsur oğulları da silaha sarılaraq, Vətənin müdafiəsinə yollandılar. Bu müqəddəs amal uğrunda rayon sakinlərindən 107 nəfər şəhid olub və itkin düşüb, onlarla zərdablı isə müharibə əlilidir.

Zərdabın şəhidlik zirvəsinə yüksəlmiş igid oğullarından 7 nəfəri (Bayramov Şaiq Tofiq oğlu, İbrahimov Seyran İbrahim oğlu, İsmayılov Babək Mehdi oğlu, Qasımov Zaur Abahan oğlu, Rəhimov Vahid Rasim oğlu, Şıxəliyev Pərviz Nəsir oğlu və Vahidov Aqşin Sərdar oğlu) məhz Daxili Qoşunların cəsur döyüşçüləri idi.

Bu sayımızda belə qəhrəmanlardan biri - Daxili Qoşunların sıravi hərbi qulluqçusu şəhid Seyran İbrahimovun həyat və döyüş yolu barədə məlumat verəcəyik.

Şəhid Seyran İbrahim oğlu İbrahimov 1965-ci il dekabr ayının 12-də Zərdab rayonunun Bəyimli qəsəbəsində anadan olub.

İbrahim kişinin və Qələm ananın (2015-ci ildə vəfat edib) böyüdüb boya-başa çatdırdığı səkkiz övladdan (Sadiq, Sabiq, Təhminə, Seyran, Sənan, Seylon, Səidə və Məhsəti) biri və eyni zamanda ailənin dördüncüsü idi Seyran. 1983-cü ildə Yusif Məmmədəliyev adına Bəyimli qəsəbə orta məktəbini bitirib. 1984-1986-cı illərdə Sovet ordusunda müddətli həqiqi hərbi xidmət keçib. 1986-cı ilin may ayında hərbi xidməti başa vuraraq doğma Vətənə qayıdan Seyran, bir müddət sonra sovxozda çilingər işləyib. 1991-ci ildə təhsilini davam etdirmək məqsədilə Ağcabədi rayonundakı 114 saylı Texniki-peşə məktəbinə daxil olub, beş ay burada təhsil aldıqdan sonra, sürücü kimi yenidən öz iş yerinə qayıdıb.

Azğınlaşmış erməni daşnaklarının Xocalıda və digər bölgələrimizdə dinc əhaliyə qarşı törətdikləri vəhşiliklərə dözməyən S.İbrahimov 1992-ci ilin mart ayında könüllü olaraq ön cəbhəyə yollanır. Seyranın döyüş yolu Goranboydan başlasa da, o, sonralar Ağdam, Ağdərə və Tərtər rayonları ərazisində gedən ağır döyüş əməliyyatlarında iştirak edir. 1993-cü ilin dekabr ayından etibarən Daxili Qoşunların 25032 saylı hərbi hissəsinin tərkibində Füzuli rayonu ərazisində torpaqlarımızın müdafiəsində dayanıb. 1994-cü ilin yanvar ayında Füzuli rayonunun Horadiz qəsəbəsi və bir sıra kəndlərin, eləcə də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin azad edilməsi uğrunda gedən uğurlu döyüş əməliyyatları zamanı şücaət nümunələri göstərib.

**12 fevral 1994-cü il.** Lələtəpə yüksəkliyi ətrafında gedən döyüş Seyranın son döyüşü olur. Bu döyüşdə ağır qəlpə yarası alan igid silahdaşımız gözlərini əbədi yumaraq, şəhidlik zirvəsinə yüksəlir...

Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik-leytenant Səfxan Bayramov (hazırda Qoşunların Ali Hərbi Məktəbində müəllim – A.Ə.) Seyranı cəsur əsgər kimi xatırladığını qeyd edərək, şəhid olmuş Vətən oğullarının əziz xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını bildirdi: "... Seyranı çox yaxşı tanıyırdım. Gözündə qorxu hissi olmayan, hər bir çətinliyə sinə gərməyi bacaran bir hərbi qulluqçu idi. Onda əsl döyüşçü ruhu və qətiyyəti vardı. Bu baxımdan, ən çətin döyüş tapşırıqlarını əzmlə yerinə yetirirdi.



Yaxşı yadımdadır, o zaman bizim Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ətrafında yerləşən postlarımız Lələtəpə yüksəkliyində mövqe tutmuş daşnak yaraqlıları tərəfindən tez-tez artilleriya və müxtəlif iriçaplı silahlardan atəşə məruz qalırdı. 1994-cü il fevralın 12-də tərkibində Seyranın da olduğu kəşfiyyat taqımı hərbi-strateji əhəmiyyət kəsb edən Lələtəpə yüksəkliyində mövqe tutmuş düşmən qüvvələrini təcrid etmək və zərərsizləşdirmək məqsədilə Cocuq Mərcanlı kəndindən gizlicə irəliləyərək Mehdili kəndində yerləşən erməni postlarına sarsıdıcı zərbələr endirmişdilər. Bunun nəticəsində düşmən canlı qüvvə sarıdan xeyli itki verərək geri çəkilmək məcburiyyətində qalmışdı. Bu zaman Lələtəpə yüksəkliyində mövqe tutmuş düşmən artilleriyasının Mehdili kəndi ətrafında döyüş tapşırığını yerinə yetirən hərbi qulluqçularımızı atəşə tutması nəticəsində cəsur silahdaşımız S.İbrahimov başından aldığı qəlpə yarasından şəhid oldu...".

Müqəddəs torpaqlarımızın azadlığı uğrunda canını qurban verən əsgər Seyran İbrahimov Zərdab şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi...

Əsgər S.İbrahimovun həyat və döyüş yolu barədə məlumatlara həmçinin görkəmli jurnalist Solmaz İbrahimovanın 1996-cı ildə Bakıda nəşr olunmuş və Zərdab şəhidlərindən bəhs edən "Qolunu boynuma dola...bacı" adlı kitabında dərc edilmiş "Ruhun bizimlədir" başlıqlı məqaləsində və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar.

Bundan əlavə, S.İbrahimovun adı Daxili Qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"nda 287-ci sıra nömrəsi ilə qeydə alınıb.

Şəhid S.İbrahimovun qəhrəmanlıqlarla zəngin döyüş yolu bugünkü gənclərimiz üçün əsl örnəkdir. O, yurdumuza göz dikən neçə-neçə düşmən yaraqlısını məhv etməklə mənfur niyyətlərini gözlərində qoyub.

Böyük iftixar hissi ilə qeyd edək ki, qəhrəman oğullarımızın uğrunda şəhid olduğu, strateji əhəmiyyət kəsb edən Lələtəpə və bir sıra digər yüksəkliklər 2016-cı ilin aprel ayında qüdrətli Azərbaycan Ordusu tərəfindən erməni işğalçılarından azad edilib. Bu gün işğaldan azad edilmiş həmin ərazilərdə dalğalanan üçrəngli bayrağımız düşmənin göz dağına çevrilib.

2017-ci il martın 31-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordumuzun aprel qələbəsinin ildönümü ilə əlaqədar Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu ilə keçirdiyi görüşdə deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü, nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan Anar Əhmədov**

# ŞƏHİDLƏRİMİZİN XATİRƏSİNƏ ABİDƏ UCALDILIB



***Daxili Qoşunların sıralarında respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edərək Vətən naminə canlarından keçmiş silahdaşlarımızın göstərdikləri şücaət və qəhrəmanlıq nümunələri müasir hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. 1992-1994-cü illərdə Vətənimizin müdafiəsi və işğal olunmuş torpaqlarımızın düşmən tapdağından azad edilməsi üzrə aparılan döyüş əməliyyatlarında Daxili Qoşunların yüzlərlə hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıblar. Daxili Qoşunların şəhid hərbi qulluqçularından 40 nəfəri 25032 saylı hərbi hissənin tərkibində düşmənlə vuruşublar. Onlar doğma torpağa sevgi, dövlətə sədaqətlərini misilsiz fədakarlıqları ilə sübut ediblər.***

12318 saylı hərbi hissədə əvvəl burada yerləşmiş 25032 saylı hərbi hissənin şəhidlərinin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə abidə ucaldılıb. Abidənin ərsəyə gəlməsində əməyi olan hərbi qulluqçularımızın xüsusi əzmkarlığı təqdirəlayiqdir.

Abidənin açılışı Daxili Qoşunların yaradılmasının 25-ci ildönümünə təsadüf etməklə, yerli ictimaiyyətin də xüsusi diqqət mərkəzində olub.

Abidə hərbi qulluqçularımızın and yerinə çevrilib, üzərində həkk olunmuş Ümummilli Liderimiz Heydər Əliyevin "Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır" kəlamı şəxsi heyətə vətənpərvərliyin nə qədər dəyərli məfhum olduğunu bir daha xatırladır. Ulularımız çox gözəl vurğulayıb: "Torpaq, uğrunda ölən varsa Vətəndir!"

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

# HƏRBİ XİDMƏT HƏYAT MƏKTƏBİDİR

***Mən Daxili Qoşunların veteranıyam. Ömrümün 20 ildən çox dövrü hərbi xidmətdə keçib. Hərbi xidmət mənim taleyimdə, bir növ, həyat məktəbi olub. Bu həyat məktəbinin dərsləri, qazandırdığı təcrübə, formalaşdırdığı keyfiyyətlər həmişə öz aktuallığını qoruyub saxlayacaq. Bununla bağlı bəzi fikir və müşahidələrimi, gəldiyim qənaətləri bölüşmək istəyirəm. Hesab edirəm ki, bu mövzuya toxunmağım ''Əsgər'' in oxucuları olan müxtəlif hərbi rütbəli hərbi qulluqçularımızı və veteranlarımızı da laqeyd qoymayacaq .***

*Hərbi xidmət hərbi xidmət borcunun dərk edilməsindən başlanır.* Yəni insan hərbi xidmət borcunu vətəndaş məsuliyyətinə, dövlətçilik təfəkkürünə, vətənpərvərlik əqidəsinə bağlı olan məfhum kimi qəbul etməklə, həyatının ən vacib missiyalarından birinin yerinə yetirilməsinə köklənir. Hərbi xidmət borcu öz ölkəsinin müdafiəçisi olmaq, Vətəninin təhlükəsizliyinin, xalqının əmin-amanlığının keşiyində dayanmaq kimi şərəfli vəzifənin yerinə yetirilməsi deməkdir. Bu məqsədlə hərbi xidmət insanın mənsub olduğu xalqın hərbi ənənələrini yaşatması və davam etdirməsinə yol açır.

Hərbi biliklər və vərdişlərə, bundan irəli gələn güc potensialına malik olmayan xalq öz mövcudluğuna hər hansı bir təhlükə qarşısında toparlana bilmir. Ona görə də tarix boyu bir çox xalqların həyatında hərbi xidmətə xüsusi münasibət formalaşıb. Həmin xüsusi münasibət cəmiyyətdə hərbi xidmətin ilk növbədə yüksək mənəvi statusunu müəyyənləşdirib.

*Bizim xalq olaraq şanlı dövlətçilik tariximiz, özünəməxsus hərbi ənənələrimiz var.* Mədəni irsimiz, bədii söz yaddaşımız vətənpərvərlik ruhunun daşıyıcısıdır. Vətənimizin hər guşəsində əcdadlarımızın ucaltdığı hərbi əhəmiyyətli qalaların qalıqlarına (bəzi qalalar günümüzədək qorunub saxlanıb) rast gəlinir. Bu fakt onların həyatında hərb gerçəkliyinin ciddi təsirlərini göstərir və döyüşkənlik atributu kimi də dəyərləndirilə bilər.

Son iki əsrlik tariximizə nəzər yetirdikdə xalqımızın üç nəslinin həyatında müharibələr dərin iz qoyub. Bunlar İkinci Dünya Müharibəsi, Əfqanıstan və Qarabağ müharibələridir. Biz hələ də müharibə təhlükəsi şəraitində yaşayırıq. Bütün bu müharibələr bizə qanla yazılan təcrübə qazandırıb, düşmənlə mübarizədə səfərbər olunmaq keyfiyyətini formalaşdırıb, hərbi xidmət borcunun müqəddəsliyini aşılayıb.

*Hərbi xidmət insanın Vətənin əsgəri olmaq ali məqamına ucaldığı yerdir.* Bu adı ləyaqətlə daşımaq lazımdır. Hərbi and içən əsgərlərimiz, kursantlarımız Vətənə sədaqətin, doğma torpağımız uğrunda fədakarlığın böyük mənəvi mahiyyətini dərk etməlidirlər. Vətənli olmaq milli qürur mənbəyidir, vətənsizlik isə mənəvi ölümə bərabərdir.

Hərbi xidmət özünə güvən və silahdaşına etibar üzərində qurulub. Özünə güvən hərbçi xarakteridir, iradə, əzmkalıq, cəsarət, cavabdehlik hissindən güc alır. Silahdaşına etibar isə əqidə, amal birliyinə söykənir, birgə xidmət gedişində sınağa çəkilir.Özünə güvən və silahdaşına etibar hissini itirmək hərbi qulluqçunun döyüş ruhunu geriyədönməz şəkildə sarsıda bilər. Döyüş ruhu niyə bu dərəcədə önəmlidir? Bəzən bu ifadənin məğzini dərindən anlamadan fikir yürüdürlər. Hərbi qulluqçu hər an, istənilən şəraitdə və vaxtda döyüşə hazır olmalıdır. Döyüş dedikdə bu, təkcə müharibə anlayışını əhatə etmir. Dinc dövrdə belə müxtəlif döyüş tapşırıqları qarşıya qoyula bilər. Götürək Daxili Qoşunların yerinə yetirdiyi vəzifələri. Daxili Qoşunlar fəaliyyət göstərdiyi ötən 25 illik bir dövrdə hərbi qulluqçularımız dəfələrlə silahlı cinayətkarlar, terrorçular, ekstremist ünsürlərə qarşı döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Belə xarakterli döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı 3 nəfər hərbi qulluqçumuzu itirmişik. Hərbi qulluqçunun xidməti istər müharibə, istərsə də dinc dövrdə risk faktoru ilə bağlıdır. Bəzən döyüş tapşırıqlarının və ya hərbi xidmət üzrə müxtəlif vəzifələrin icrası elə çətinliklərlə üzləşir ki, bu psixoloji səddi, habelə digər maneələri aşmaq üçün hərbi qulluqçu var qüvvəsini ortaya qoymalıdır. Döyüş ruhu yoxdursa, bu qüvvə öz-özünə yaranmayacaq. Silahlı cinayətkarın, terrorçunun da döyüş vərdişi ola bilər, ancaq döyüş ruhu ola bilməz. Çünki silahlı cinayətkar, terrorçu üçün dövlətçilik, vətənpərvərlik anlayışı yaddır, onların nəzərində insan həyatının heç biri dəyəri yoxdur, qara əməllərin bataqlığında çabalayan bu adamların psixologiyası dərin mənəvi aşınmaya uğrayıb. Onlar mənəvi əqidəyə sahib deyil, kriminal şüurun daşıyıcılarıdırlar.

*Bütün qəhrəmanlıqların təməlində döyüş ruhu dayanır.* Hərbi qulluqçunun döyüş ruhunu yüksəldən onun öz məsləyinə inamıdır, təlimlərdə alın təri ilə yiyələndiyi, təcrübə topladıqca təkmilləşdirdiyi bilik və bacarıqların vəhdətidir, yetişdiyi hərbi kollektiv mühitində layiq olduğu mövqeyə sahib ola bilməsidir, mənəvi-psixoloji cəhətdən yetkinliyidir.

*Subordinasiya prinsipi hərbi xidmətdə bütün digər sahələrlə müqayisədə daha çox diqqət yetirilən cəhətdir.* Tabelik münasibətlərindən irəli gələn tələblərə riayət etmədən hərbi xidmətdə nizam-intizam yaratmaq mümkün deyil. Tabe olmaq və tabe etməyi bacarmaq hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin elə bir xüsusiyyətidir ki, vahid bir nizam və ahəng formalaşdırır. Hərbi xidmətdə olarkən bu məsələdə müxtəlif məqamların şahidi olmuşam. Bəzən müxtəlif hərbi vəzifəli və hərbi rütbəli hərbi qulluqçular arasında yersiz, nizamnaməyə uyğun olmayan hərəkətləri görmüşəm. Birmənalı şəkildə qənaətim budur ki, bu məqamların üstündən səthi keçmək olmaz. Hansısa hərbi kollektivdə belə qüsurlar qeydə alınırsa, komandanlıq səviyyəsində görülən tədbirlərlə yanaşı, hərbi ictimai təsisatlar (zabit yığıncağı, gizir və çavuş şuraları, kateqoriyalar üzrə şərəf məhkəmələri və s.) tərəfindən də tutarlı reaksiya verilməlidir. Təcrübəsi çox olan, nüfuzlu, yaşda böyük olan hərbi qulluqçuların belə məqamlara kəsərli münasibəti də gərəkli addımlardandır.

Subordinasiya prinsipi hərbi qulluqçuların vəzifə və öhdəliklərinin, bütövlükdə hərbi xidmət borcunun düzgün yerinə yetirilməsində də xüsusi rol oynayır. Hərbi rəhbər şəxslərə müraciət və məruzəetmə qaydaları, onların yanında tabelikdəki hərbi qulluqçuların davranışına olan tələblər bütöv bir tənzimləyici sistemin özəyini təşkil edir. Komandir və rəislərə, hərbi rütbəcə üstün olan və ya hərbi rütbəsi daha əvvəldən verilmiş hərbi qulluqçulara hörmətlə yanaşılması böyük tərbiyəvi mahiyyət daşıyır. Müəyyən bir xidmət mərhələsini keçən, illərin təcrübəsini qazanan, yüksək hərbi rütbə və vəzifələrə yüksələn hərbi qulluqçulara sayqılı və diqqətcil münasibət göstərilməsi hərbi qurumun yüksəlişi üçün vacib olan mənəvi-etik dəyərlər sisteminin təzahür formasıdır.

Hərbi qulluqçular hərbi xidmət dövründə müxtəlif orden və medallar, döş nişanları, fəxri adlar və sair mükafatlarla təltif olunurlar, bir sıra hallarda onlara vaxtından əvvəl növbəti hərbi rütbələr verilir. Bütün bunlar, təbii ki, nümunəvi xidmətə stimuldur, hərbi qulluqçunun təqdirəlayiq fəaliyyətinə, nəzərəçarpan uğurlarına verilən qiymətdir. Ancaq bəzi hallarda təltiflər və mükafatlar kimlərə isə başgicəlləndirici təsir göstərir, əsassız iddialara düşməsinə gətirib çıxarır. Hərbi qulluqçu heç vaxt öz təltifləri ilə lovğalanmamalıdır. Bununla o, özünü və təltiflərini gözdən sala bilər. Hərbi qulluqçu daim öz hərbi rütbəsinə, təltiflərinə layiq olduğunu şərəfli xidməti ilə təsdiq etməlidir.

*Hərbi xidmət prosesi nizamnamələr, əsasnamələr, direktivlər, əmr və göstərişlər əsasında tənzimlənir.* Ancaq bu o demək deyil ki, həmin normativ sənədlər hərbi xidmətin bütün məqamlarını əhatə edir. Bu, mümkün deyil və bəzən belə vəziyyətlərdə düşünülmüş təşəbbüs, eləcə də səmərəli təklif irəli sürülməsi zərurətə çevrilir. Ancaq bəzi hərbi qulluqçular təklif və təşəbbüslə çıxış etməkdə tərəddüd edir. Onlar fikirləşirlər ki, təklif və təşəbbüsümə nə gərək var? Bəlkə bu addımım yersiz görünə bilər? Ancaq bu, düzgün yanaşma deyil. Təklif və təşəbbüs xidməti zərurətdən yaranır. Əsas odur ki, bu təklif və təşəbbüs məntiqi əsaslandırılmış olsun, vaxtında və yerində irəli sürülsün və nəhayət, onun arxasında cavabdehliyi üzərinə götürməkdən çəkinməyən hərbi qulluqçu iradəsi dayansın.

*Hərbi xidmətdə olmaq insanın şüurlu həyatında, onun mənəvi-ictimai ideallarının formalaşmasında, kamilləşməsində öz möhürünü vurur. Hesab edirəm ki, hərbi xidmətin çoxcəhətli məqamları ilə bağlı faydalı fikir mübadiləsi üçün həmişə geniş mövzu müstəvisi var.*

**Yalçın Abbasov**